

# Yusif NƏĞMƏKAR-70

Hörmətli Yusif Nəğməkar!

Sizi - istedadlı şairimizi 70 yaşınızın tamam olması münasibətilə təbrik edirik.

Bədii yaradıcılığa başladığınız ötən əsrin 70-ci illərindən bəri zəngin, mənalı həyat yolu keçmisiniz.

İlk mətbu şeirləriniz hələ orta məktəb şagirdi olduğunuz illərdə Beyləqan, İmişli və Ağcabədi rayonlarında çıxan "Yüksəliş", "Qızıl Ulduz" və "Sürət", eləcə də "Azərbaycan Gəncləri", "Azərbaycan müəllimi" qəzetlərində işıq üzü görmüşdür.

Siz uzun müddət, tərəkəmə-elat həyatını yaşamış, xüsusilə, uşaqlıq-yeniyetməlik çağlarını - ömrünün on beş ilini köç yolları ilə günlərlə, həftələrlə səfər edib qovuşduğunuz füsünkar Göyçə-Kəlbəcər yaylaqları qoynunda keçirib, aran istisi ilə dağ havası qovşağında təbiət möcuzələrinə vurğunluqla şeirlər yazmısınız.

1977-ci ildə siz N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakultəsinin tələbəsi olarkən şeirləriniz böyük novator Xalq şairi Rəsul Rzanın diqqətini cəlb etmiş və o, yaradıcılığınız haqqında "Ədəbiyyat və İncəsənət" qəzetində "Şair sözü" rublikasında "Təsadüf" adlı, "Uğurlu yol" xeyir-dualı yazı ilə çıxış etmişdir. Bundan sonra dövri mətbuatda bir müddət şeirləriniz "Yusif Mədət", az sonra isə "Yusif Nəğməkar" imzası ilə çap edilmişdir.

Bədii yazılarınız "Azərbaycan", "Çinar pöhrələri", "Sabir poeziya günləri", "Ana" albomu və digər almanaxlarda, eləcə də "Ulduz", "Azərbaycan", "Literaturni Azərbaycan" (rusca) jurnallarında, "Qobustan" toplusunda AYB-nin orqanı olan "Ədəbiyyat və İncəsənət" qəzetində çap olunmuş və olunmaqdadır.

"Sazın işığında" adlı ilk şeirlər kitabınız 1984-cü ildə "Gənclik" nəşriyyatında çapdan çıxmış və oxucuların marağına səbəb olmuşdur.

Siz 1977-80- ci illərdə Beyləqan rayonunda müəllim kimi əmək fəaliyyətinə başlamış, sonra Bakıya qayıdaraq Azərbaycan Dövlət Televiziya və Radio verlişləri komitəsinin "Gənclər üçün praqram" baş redaksiyasında ştatdankənar müxbir, kiçik redaktor, redaktor, məsul katib, studiya direktorunun müavini və böyük redaktor vəzifələrində çalışmısınız.

Televiziya fəaliyyəti dövründə müxtəlif ölkələrə ezam olunaraq "Ulkana uçan zümrüd quşu" - "Sibirin qış nağılı", "Bizim ellər yerindəmi", "Sübh şəfəqləri" və s. kimi silsilə verilişlərin yaradıcısı, redaktoru, ssenari müəllifi və aparıcısı olmusunuz.

Siz bir şair-publisist, bir vətənpərvər ziyalı kimi dövri mətbuatda vaxtaşırı olaraq zamanın nəbzini tutan publisistik yazılarınızla çıxış etmisiniz.

Lirik-fəlsəfi şeirləriniz, poemalarınız, yenilik axtarışınızla oxucuların rəğbətini qazanmısınız.

2015-ci ildə Çanaqqala zərəfinin 100 illiyi münasibəti ilə Türkiyənin Azərbaycandakı böyük elçiliyi və AYB-nin birgə keçirdikləri ədəbi müsabiqənin qalibi olmusunuz.

Sözlərinizə bəstəkarlarımız tərəfindən onlarca nəğmələr bəstələnib, o cümlədən 44 günlük Qarabağ zəfərinə həsr etdiyiniz poetik əsərlərinizin də bir çoxu nəğmələşərək dillər əzbərinə çevrilmişdir.

Dünya ədəbiyyatından uğurlu tərcümələriniz olduğu kimi əsərlərinizin bir qismi də xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

İndiyədək "Sazın işığında", "Bilsəydim ayrılıqdır...", "Alın yazım", "Vəslin edamı", "Çingiz çini", "Zal ağacı", "Bəsirət gözəli", "Sevgim - mələklər yuxusu", "Qələm səsi", "60-cı yuxu", "Nizami demiş...", "Mən vətənə oxşayıram", "Haqqın qurbanı", "Qurbannamə", "Sevgi məbədi", "Ələsgər zirvəsi" və s. kitabınız çap olunmuşdur.

2025-ci ildə çapdan çıxan "Çağdaş poeziyamızın Nəğməkarı" adlı iri həcmli kitabda isə əsərləriniz - ümumən yaradıcılığınız haqqında görkəmli sənət adamlarının yazdıqları təhlili məqalələr toplanmışdır.

Türkiyədə yaradıcılıq ezamiyyətində olarkən, "Boğaz" TV kanalının canlı verilişində çıxışınız bütün türk dünyası üçün soydaşlarımızın marağına səbəb olmuşdur.

Siz AYB-nin "Qılınc və qələm", "Mikayıl Müşfiq", "Şahmar Əkbərzadə" və "Rəsul Rza" adına beynəlxalq ədəbi mükafatlar laureatısınız.

2024-cü ildə yazdığınız "Ələsgər zirvəsi" poema-dastanına görə "Ələsgər-200" yubiley medalına layiq görülmüsünüz.

Hörmətli Yusif müəllim!

Sizi - sevimli şairimizi bir daha 70 illik yubileyiniz mübasibəti ilə təbrik edir, sizə cansağlığı, uzun ömür, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**